# Qayğıkeşlik və xeyirxahlıq amalı ilə yaşayan insan

*Həyat Tanrı tərəfindən hər bir insana şərəflə yaşamaq, qurub-yaratmaq, xeyirxahlıq etmək üçün verilən bir fürsətdir. Peşəsindən, sənətindən və vəzifəsindən asılı olmayaraq xoşbəxt o insandır ki, xalqına, millətinə sədaqətlə xidmət edir, insanlığı və xeyirxahlığı ilə xatirələrdən, yaddaşlardan, onu tanıyan hər bir kəsin qəlbindən heç vaxt silinmir. Məhz belə insanlardan biri də öz xeyirxahlığı ilə hamının hörmətini qazanmış, 60 illik yubileyini qeyd etməyə hazırlaşan, ömrünün 30 ilini Azərbaycan dəmir yolu sahəsinə bağlamış, “Tərəqqi” medalına və fəxri dəmiryolçu adına layiq görülmüş* ***Şirməmməd Əhmədovdur.*** *Yubiley ərəfəsində Şirməmməd müəllimlə görüşüb həyat yolu, əmək və fəaliyyəti barədə məlumat verməsini xahiş etdik. O, bizimlə söhbətində bu barədə danışaraq dedi:*

—İcazə verin, əvvəlcə fürsətdən istifadə edib 60 illik yubileyim ərəfəsində vaxt tapıb mənimlə görüşüb respublikanın ən nüfuzlu mətbu orqanlarından biri olan “Respublika” qəzetində yer ayırdığınıza görə qəzetinizin rəhbərliyinə öz dərin təşəkkürümü bildirim. Əvvəlcə özüm barədə onu deyə bilərəm ki, 1958-ci ildə Azərbaycanın gözəl guşələrindən olan Sabirabad rayonunda anadan olmuşam. 1976-78-ci illərdə hərbi xidmət keçmiş, 1980-ci ildə isə Səttərxan adına zavodda əmək fəaliyyətinə başlamışam. 1981-ci ildə Ç.İldırım adına Politexnik İnstitutuna göndərişlə qəbul olmuş və oranı bitirdikdən sonra da yenidən əmək fəaliyyətimi həmin zavodda usta kimi davam etdirmişəm. 1988-ci ildən isə iş fəaliyyətimi Azərbaycanın dəmir yolu sahəsində davam etdirmişəm və Bakı Lokomotiv Deposunda usta vəzifəsinə təyin olunmuşam. Onu da qeyd edim ki, 2000-ci ildən YAP-ın üzvüyəm, həmin ildə səmərəli fəaliyyətimə görə “Fəxri dəmiryolçu” döş nişanına layiq görülmüşəm. 2002-ci ildə Depo Həmkarlar İttifaqının sədri seçilmişəm. 2015-ci ildə ictimai-siyasi fəaliyyətimə yüksək qiymət verilmiş və dövlətimiz tərəfindən “Tərəqqi” medalı ilə təltif olunmuşam. 2018-ci ildə Respublika Həmkarlar İttifaqı Konfederasiyasının yubiley medalına layiq görülmüş və 3 dəfə HİK konfederasiyasının qurultayına nümayəndə seçilmişəm.

Əmək fəaliyyətim barədə danışarkən deyə bilərəm ki, ömrümün 30 ilə yaxın bir dövrünü respublika iqtisadiyyatının ən çətin, lakin şərəfli bir sahəsi olan ölkə polad magistralına, hazırda çalışdığım Bakı Lokomotiv Deposuna bağlamışam. Qürur hissi ilə vurğulamaq lazımdır ki, təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən ölkə dəmir yoluna qoyulmuş hərtərəfli diqqət və qayğı bu gün onun layiqli siyasi varisi Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğur və ardıcıllıqla davam etdirilir. Son illər onun rəhbərliyi və göstərişi əsasında həyata keçirilən islahatlar yol-nəqliyyat, o cümlədən dəmir yolu sektorunun müasirləşməsinə, infrastrukturun yeniləşərək müasir dünya standartlarına çatdırılmasına şərait yaratmışdır. Sevindirici haldır ki, son üç ildə hörmətli millət vəkili, ADY QSC-nin sədri Cavid Qurbanovun bu sahəyə sədr təyin olunmasından keçən müddət ərzində cənab Prezidentin qarşıya qoyduğu bütün vəzifələr uğurla həyata keçirilir, məqsədyönlü işlər öz bəhrəsini verir. Təsadüfi deyil ki, istər yerli, istərsə də böyük beynəlxalq əhəmiyyətli layihələrdən olan Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin tikintisinin reallaşması və digər mühüm işlər Azərbaycanın tranzit ölkəyə çevrilməsinə, dünyanın bir çox ölkələri ilə ticarət əlaqələrinin daha da genişlənməsinə səbəb olmuşdur. Onu da xüsusi vurğulamaq lazımdır ki, son illər dəmir yolunda çalışanların sosial-məişət, mənzil şəraitinin və maddi durumunun yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılmış, Cavid Qurbanovun dəmiryolçulara qayğısının nəticəsidir ki, xeyli dəmiryolçu yeni mənzillərlə təmin edilmişdir. Bu gün MHİRK dəmir yolunda həyata keçirilən bütün islahatlara daim yardımçı olub. Azərbaycan Dəmiryolçularının Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsi “Həmkarlar İttifaqı haqqında” Azərbaycan Respublikasının Qanunu və Əmək Məcəlləsində müəyyən edilmiş vəzifə və səlahiyyətlərindən geniş istifadə edir. Bu gün bizim qarşımızda duran əsas vəzifələr ondan ibarətdir ki, ölkə dəmir yolunda çalışan işçilərin sosial problemlərinin həllinə yardımçı olaq, onların əmək şəraitinin daha da yaxşılaşdırılmasını təmin edək, əmək hüquqlarının müdafiəsini, sosial-iqtisadi mənafelərinin qorunmasını ön planda saxlayaq. Rəhbərlik tərəfindən qarşıya qoyulmuş bu mühüm vəzifələrin yerinə yetirilməsində biz həmkarlar təşkilatı olaraq ardıcıl tədbirlər həyata keçiririk. Azərbaycan Prezidenti cənab İlham Əliyev müasir cəmiyyətimizdə, yeni ictimai-siyasi və iqtisadi sistemin təşəkkül tapdığı bu mərhələdə həmkarlar ittifaqlarının roluna xüsusi əhəmiyyət verərək demişdir: “Məhz müasir təcrübəyə yiyələnərək peşəkarlığını artıran, güclü və nüfuzlu həmkarlar ittifaqı təşkilatları öz fəaliyyətində uğur qazana bilər”. Ölkəmiz dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycanın həmkarlar ittifaqları öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Müstəqil Azərbaycanın dünya birliyinə inteqrasiya olunması həmkarlar ittifaqlarının beynəlxalq əlaqələrinin qurulması üçün də geniş şərait yaratmışdır. Son illər həmkarlar ittifaqlarının cəmiyyətdə əməkdaşlıq ruhunun bərqərar olması, sosial ədalət prinsiplərinə əməl edilməsi, bazar iqtisadiyyatı şəraitində işçilərin əmək hüquqlarının qorunması, işəgötürənlərlə işçilər arasında münasibətlərin tənzimlənməsi istiqamətində çox işlər həyata keçirilmişdir. Əməyin təşkili, sosial problemlərin həlli sahəsində qabaqcıl dünya təcrübəsindən bəhrələnmək və ölkəmizdə tətbiq etmək zamanın tələbidir. Ölkə başçısı onu da vurğulayıb ki, müstəqil dövlətimizin dünya birliyinə inteqrasiya olunması həmkarlar ittifaqlarının beynəlxalq əlaqələrinin qurulması üçün geniş şərait yaradır.

Qeyd etdiyim kimi, 30 ilə yaxındır fasiləsiz olaraq Bakı Lokomotiv Deposunda çalışıram. Depoda öz işini bilən, təcrübəli, yüksək peşə sahibləri çoxdur. İşçilərin əksəriyyəti uzun illər ərzində böyük təcrübə toplamış insanlardır. Son zamanlar “ADY” QSC-nin rəhbərliyinin dəmiryolçulara diqqət və qayğısının artması, onların sosial problemlərinin həlli yolunda atılan təqdirəlayiq addımlar, işçilərin əməkhaqlarının nəzərəçarpacaq dərəcədə yüksəldilməsi, sağlamlıqlarının qorunması, istirahətlərinin təmini və digər işlər onları daha yaxşı işləməyə ruhlandırmışdır. Müəssisə rəhbərliyi ilə HİK-in qarşılıqlı, əlbir işinin nəticəsində qarşıya çıxan bütün problemlər az bir vaxt ərzində öz həllini tapır, aradan qaldırılır. Müəyyən işlərlə əlaqədar hər bir kəsin müraciətinə baxılır, onların qaldırdığı bütün məsələlər öz müsbət həllini tapır. Hər ay müraciət edən işçilərə maddi yardımlar göstərilir. Bundan başqa müəyyən əlamətdar günlərdə, xüsusən bayram günlərində, o cümlədən ad günlərində hər bir işçiyə hədiyyələr təqdim olunur. Yay mövsümündə işçilərin Nabranda yerləşən Lokomotiv istirahət mərkəzində istirahət etmələri təmin olunur. Son dövrdə Bakı Lokomotiv Deposunun rəisi ilə HİK-in birgə fəaliyyətinin nəticəsi olaraq kollektiv üzvlərinin hüquqlarının qorunması, işçilərin sosial vəziyyətinin daha da yaxşılaşdırılması, təhlükəsizlik qaydalarına ciddi əməl olunması və digər mühüm vəzifələrlə bağlı fəal və ardıcıl işlər aparılmışdır. Müdiriyyət və HİK arasında bağlanan kollektiv müqavilənin şərtlərinin çoxu əsasən yerinə yetirilmişdir. Həm sexlərdə, həm də elektrik qatarlarının hərəkətində təhlükəsizlik qaydalarına riayət olunması təmin edilmişdir. Qeyd edim ki, “ADY” QSC rəhbərliyinin diqqət və qayğısı, depo rəisinin əzmkar fəaliyyətinin nəticəsidir ki, depoda əsaslı və cari təmirdən keçən lokomotivlərin və elektrik qatarlarının



təmiri yüksək səviyyədə aparılır. Deponun əldə etdiyi bu uğurlarda HİK-in də rolu böyükdür və bunun nəticəsi olaraq dəfələrlə AHİK-in fəxri diplomuna layiq görülmüşük. Bir sözlə qarşıya qoyulan bütün məsələlər, işlər öz həllini tapır. Hörmətli Cavid Qurbanovun müəssisədə olması, işlərlə yerindəcə maraqlanıb öz tapşırıq və tövsiyələrini verməsi əldə olunan uğurların əsasıdır. Depoda olarkən müəssisə rəhbərliyinin qaldırdığı bütün məsələlər tez bir zamanda öz həllini tapmışdır.

Vurğulayım ki, Bakı Vaqon Deposunda olarkən biz deponun rəisi Yadigar Şirməmmədov və müəssisə kollektivinin bəzi üzvləri ilə görüşüb HİK-in sədri Şirməmməd müəllimlə bağlı fikirlərini bölüşmələrini xahiş etdik. Onların hamısı HİK-in işindən öz razılıqlarını bildirdilər. Biz də Şirməmməd müəllimi ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, ailə xoşbəxtliyi, əmək fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

**Əli SADIQOV,**
**“Respublika”.**